| | | | |
|---|---|---|---|
| | **Fənnin adı, kodu və kreditlərin sayı** | **GEOG389 Əhali coğrafiyası, kredit sayı-3 (6 AKTS)** | |
| | **Departament** | Coğrafiya və Ətraf Mühit | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2019/2020-ci tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim(lər)** | Rövşən Nəriman oğlu Kərimov | |
| | **E-mail:** | rovshaneco@yahoo.com | |
| | **Telefon:** | +994556881566 | |
| | **Mühazirə otağı/Cədvəl** | Həftənin 4-cü günü, saat 8:30, 10:00 | |
| | **Konsultasiya vaxtı** | Həftənin 5-ci günü saat 10:00-11:00 | |
| **Prerekvizitlər** | | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Əsas:<br>1. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. Pearson Education. 2009.<br>2. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2016.<br>3. Müəllimin mühazirələri.<br>Əlavə:<br>4. Danny Mackinnon, Andrew Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. Pearson Education. 2011.<br>5. İsmayılov Ç.N. İqtisadi və sosial coğrafiyanın əsasları. Bakı. 2010. | | |
| **Tədris metodları** | Mühazirə | | |
| | Qrup müzakirəsi | | |
| **Qiymətləndirmə** | Komponentləri | Tarix/son müddət | Faiz (%) |
| | Aralıq imtahanı | Aprel ayı | 30 |
| | Fəallıq | | 5 |
| | Kuiz | 1) Mart ayı.<br>2) May ayı. | 10 |
| | Davamiyyət | | 5 |
| | Kurs işi (Layihə) | Son təhvil tarixi: 13 May | 10 |
| | Final imtahanı | İyun ayı | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | "Əhali coğrafiyası" kursu ərazi əhali qruplarını, məskunlaşmış yerlər sistemlərini və onların dinamikasını, tərkibini kompleks şəkildə öyrənir. Kursun vəzifəsi dünyada, onun regionlarında, o cümlədən Azərbaycanda və müxtəlif tipli ölkələrdə əhali inkişafının qanunauyğunluqlarının xarakteristikasını vermək, habelə əhalinin, əmək ehtiyatlarının dinamikasının, strukturunun, yerləşməsinin, onlardan istifadənin iqtisadi-coğrafi xüsusiyyətlərini şərh etməkdir. Əhali etnogenezi, məskunlaşması, təbii artımı, miqrasiyası, həyat səviyyəsi, | | |

| | |
|---|---|
| | məşğulluğu, dini və etnik tərkibi öyrənilir, əhalinin kəmiyyət və keyfiyyət göstəriciləri təhlil olunur. |
| **Kursun məqsədi** | Fənnin tədrisində məqsəd əhali coğrafiyasının elmi əsaslarının, demoqrafik proseslərin, irqlərin, etnik tərkibin, dinin, əmək ehtiyatlarının, əhalinin miqrasiyasının, urbanizasiyanın, kənd və şəhər məskunlaşmasının coğrafi öyrənilməsidir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Semestrin sonunda tələbələr aşağıdakıları bacaracaqlar:**<br>1. Dünyanın, onun ayrı-ayrı regionlarının əhalisinin sayı barədə məlumat əldə edəcəklər.<br>2. Dünyanın, onun ayrı-ayrı regionlarının, böyük ölkələrinin əhalisini, onun sayını, etnik, dini, cins, yaş tərkibini, əmək ehtiyatlarını müqayisəli şəkildə öyrənəcəklər.<br>3. Əhalinin etnogenezi, məskunlaşması, təbii artımı, dini və etnik tərkibi, yaş-cins tərkibi, təhsil səviyyəsi, miqrasiyası, həyat səviyyəsi, məşğulluğu barədə biliklərə yiyələnmiş olacaqlar.<br>4. Dünya əhalisinin kəmiyyət və keyfiyyət göstəricilərinin formalaşmasında rolu olan coğrafi, sosial-iqtisadi və demoqrafik amillərin rolu barədə geniş təsəvvürə malik olacaqlar. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Tədrisin keyfiyyətini təmin etmək məqsədilə mümkün qədər illüstrativ materiallara (on-line xəritələrə, qrafik təsvirlərə və diaqramlara) geniş yer ayrılmışdır.<br>Aktivlik (fəallıq) 5 balla qiymətləndirilir. Belə ki, tələbənin dərs zamanı ümumi hazırlığı, müəllimin qrupa ünvanlandığı suallara fəal şəkildə cavab verməsinin nəticələri 0-1 balla qiymətləndirilir. Semestrin sonuna qədər bu ballar yığılır (maksimum 5) və tələbənin “Aktivlik” balı müəyyən edilir. Tələbənin özünü dərsdə diqqətli aparması, nizam-intizamı pozmaması, başqasına dərsi dinləməyə mane olmaması tələb olunur. Tələbə tərəfindən belə hallar təkrarlanarsa, onun “aktivlik” balından çıxılır.<br>Tələbənin dərsə vaxtında gəlməsi, gecikməməsi onun “Davamiyyət” balına yazılır (maksimum 10 bal). Hər 2-ci qaib tələbənin 1 balını silmiş olur.<br>Final və Aralıq imtahanları müəllim tərəfindən ya test, ya açıq sual, yaxud da hər ikisindən istifadə olunmaqla hazırlana bilər.<br>Kuiz üçün 10 bal ayrılıb. Semestr ərzində ən azı iki kuiz keçirilir (iki kuizin hərəsi 5 baldan hesablanacaq). Kuiz sualları həm açıq, həm də test formasında ola bilər. Kurs işinə təqdimat (təxminən 20-25 slayd) daxildir. Kurs işinin qiymətləndirilməsi meyarları bunlardır:<br>1. Mövzunun 8-10 səhifəlik yazıda tam əhatə olunması (1 bal)<br>2. Ən son, çox köhnə olmayan materiallardan istifadə (1 bal)<br>3. Alınan nəticələrin konkret və elmi baxımdan məntiqli olması (1 bal)<br>4. Kurs işinin təqdimatı zamanı qazanılmış biliklərin yaxşı və sərbəst nümayiş etdirilməsi – çıxışın keyfiyyəti (1 bal)<br>5. Təqdimatdan sonra verilən suallara cavabların verilə bilməsi (1 bal)<br>Kurs işini təhvil tarixindən gec təqdim etmiş tələbə avtomatik olaraq 1-2 bal itirmiş olur. |

**Cədvəl**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik / Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | 13 fevral | Əhali coğrafiyası elmlər sistemində. Dünya əhalisi. | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. Səh.7-17.<br>2. Müəllimin mühazirəsi. |
| 2. | 20 fevral | Əhalinin sayı və artımı | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. səh.20-41.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2009. Chapter 2.<br>2. Müəllimin mühazirəsi. |
| 3. | 27 fevral | Əhalinin cins, yaş strukturu və ailə tərkibi. | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. səh.42-49<br>2. Müəllimin mühazirəsi. |
| 4. | 5 mart | Əhali qanunları. Demoqrafik siyasət | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. səh. 50-99.<br>2. Müəllimin mühazirəsi. |
| 5. | 12 mart | İrqlərin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. Səh. 101-121.<br>2. Müəllimin mühazirəsi. |
| 6. | 19 mart | Əhalinin etnik tərkibi | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. s.122-159.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2009. Chapter 7.<br>3. Müəllimin mühazirəsi. |
| 7. | 2 aprel | Dinlərin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. s.122-159.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2009. Chapter 6. |
| 8. | 9 aprel | Aralıq imtahan | |
| 9. | 16 aprel | Əmək ehtiyatları | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. S.182-193.<br>2. D.Mackinnon, A.Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. 2011.pp.147-173.<br>3. Müəllimin mühazirəsi. |
| 10. | 23 aprel | Əhalinin məşğulluğu. İşsizlik | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. s.185-193.<br>2. D.Mackinnon, A.Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. 2011.pp. 147-173.<br>3. Müəllimin mühazirəsi. |
| 11. | 30 aprel may | Əhalinin miqrasiyası, növləri və səbəbləri | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006.<br>2. James M. Rubenstein. Contemporary Human geography. 1st Edition. 2009. Chapter 3.<br>3. Müəllimin mühazirəsi. |

| | | | |
|---|---|---|---|
| 12. | 7 may | Əhalinin sıxlığı və ona təsir göstərən amillər | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2009. Chapter 2.<br>3. Müəllimin mühazirəsi. |
| 13. | 14 may | Məskunlaşmanın tipləri və formaları. Şəhər yaşayış məskənlərinin coğrafiyası | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. S.248-262.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2009. Chapter 11.<br>3. Müəllimin mühazirəsi. |
| 14. | 21 may | Şəhərlərin iqtisadi coğrafi mövqeyi, Tipologiyası və təsnifatı | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. 271-289.<br>2. Müəllimin mühazirəsi. |
| 15. | 29 may | Qəsəbələr və kəndlər. Kənd əhalisinin məskunlaşması | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. S.315-332.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2009. Chapter 10.<br>3. Müəllimin mühazirəsi. |
| 16. | 30 may | Ümumiləşdirici dərs. Təqdimatlar. | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.